**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2022-ci il üzrə hesabatı**

İqtisadi siyasətin sosial siyasətlə uzlaşdırılması Prezident İlham Əliyevin Hökumət qarşısında müəyyən etdiyi əsas vəzifələrdən biridir. Təsadüfi deyildir ki, əvvəlki illərdə olduğu kimi 2022-ci ildə də dövlət büdcəsinin sosialyönümlülüyü qorunub saxlanılmış, əhalinin sosial təminatının və rifahının yaxşılaşdırılmasına yönəlmiş tədbirlər görülmüşdür. Belə ki, ölkədə əmək haqlarının, əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin artırılması, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində bir sıra mühüm addımlar atılmışdır.

## 1. Dövlət Sosial Müdafiə Fondu

2022-ci ildə ***DSMF-nin gəlirləri*** 5729,7 milyon manat təşkil etmişdir ki, bu da 2021-ci illə müqayisədə 552,0 milyon manat və ya 10,7 faiz çoxdur.




2022-ci ildə ***DSMF-nin ümumi xərcləri*** 5252,1 milyon manat olmaqla, əvvəlki illə müqayisədə 409,5 milyon manat və ya 8,5 faiz artım qeydə alınmışdır.




Əhaliyə ödənişlərin tərkibində pensiya xərcləri 4947,7 mln. manat təşkil etmişdir (əvvəlki illə müqayisədə 7,9 faiz çox).

## 2. İşsizlikdən Sığorta Fondu

İşsizlikdən Sığorta Fondunun 2022-ci il üzrə işsizlikdən sığorta haqları üzrə cəmi gəlirləri 181,4 milyon manat təsdiq edilmişdir ki, bu da 2021-ci illə müqayisədə 23,6 milyon manat və ya 15 faiz çoxdur.

2022-ci ildə Fondun gəlirlərinin icrası 164,2 milyon manat səviyyəsində olmuşdur ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 12 faiz çoxdur. 2022-ci ilin əvvəlinə öncəki illərin istifadə olunmayan qalıq məbləği 66,2 milyon manat nəzərə alınmaqla 2022-ci ilin sonuna Fondun ümumi gəlirləri 230,4 milyon manat təşkil etmişdir.

Fondun 2022-ci il üzrə xərcləri 2021-ci illə müqayisədə 15 faiz və ya 23,6 milyon manat çox olmaqla 181,4 milyon manat təsdiq edilmişdir. 2022-ci ildə Fondun xərclərinin icrası isə 163,4 milyon manat səviyyəsində olmuşdur ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 25 faiz çoxdur.

## 3. Sosial siyasət

***Yaşayış minimumu:*** 2022-ci il yanvarın 1-dən əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği ölkə üzrə 210 manat, əmək qabiliyyətli əhali üçün 220 manat, pensiyaçılar üçün 176 manat, uşaqlar üçün 193 manat məbləğində müəyyən edilmişdir.

**2022-ci il üçün yaşayış minimumu, *manat***




***Əhalinin gəlirləri və orta aylıq əməkhaqqı:*** 2022-ci il ərzində ölkə əhalisinin gəlirləri əvvəlki ilə nisbətən nominal ifadədə 20,5 faiz artaraq 68914,6 milyon manat təşkil etmiş, hər nəfərə düşən gəlir orta hesabla 6844,9 manat olmuşdur.

2022-ci ildə ilkin məlumatlara əsasən ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2021-ci ilə nisbətən 14,7 faiz artaraq 839,4 manat təşkil etmişdir. Əməkhaqqı neft-qaz sektorunda 3415,3 manat, qeyri neft-qaz sektorunda 790,2 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 794,9 manat, özəl müəssisələrdə isə 889,0 manat olmuşdur.

**2015-2022-ci illərdə minimum aylıq əməkhaqqı və bir nəfərə düşən orta aylıq nominal əməkhaqqı**




Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 dekabr tarixli 3051 nömrəli Sərəncamına əsasən 2022-ci il 1 yanvar tarixindən etibarən ölkə üzrə minimum əməkhaqqı məbləği 20 faiz artırılaraq 250 manatdan 300 manata çatdırılmaqla 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu (210 manat) 43 faiz üstələmişdir.

***Məşğulluq:*** 2023-cü il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1746,3 min nəfər olmuş, onlardan 52 faizi iqtisadiyyatın dövlət sektorunda, 48 faizi isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 27,5 faizi təhsil, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 23,6 faizi sənaye, kənd təsərrüfatı və tikinti, 18,7 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,5 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 19,5 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2022-ci ildə 16,1 min nəfərin özünüməşğulluğu təmin edilmişdir ki, onlardan 10,1 mini kənd təsərrüfatı, 6 mini isə xidmət və istehsal sahələrini əhatə etmişdir.

Həmin şəxslərdən 687 nəfəri şəhid ailəsi üzvü, 1,6 min nəfəri əlilliyi olan şəxs, 1,2 min nəfəri keçmiş məcburi köçkün, 3,9 min nəfəri qadın, 2,5 min nəfəri 29 yaşadək gənc, 304 nəfəri cəzaçəkmə müəssisəsindən azad olunmuş şəxslər və 91 nəfəri ünvanlı dövlət sosial yardımı alan şəxslərdir.

Möhtəşəm tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə 1 yanvar 2023-cü il tarixə 1,9 min şəhid ailəsi üzvü, 4,3 min nəfər müharibədə xəsarət alan şəxs və 3,3 min nəfər müharibə iştirakçısı olmaqla, ümumilikdə 9,5 min nəfər özünüməşğulluğa cəlb edilmişdir.

***Pensiya təminatı:*** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 3135 nömrəli Sərəncamına əsasən 2022-ci ilin 1 yanvar tarixinə bütün növ əmək pensiyalarının sığorta hissəsi 2021-ci ildə ölkə üzrə orta aylıq nominal əməkhaqqının 3,4 faiz illik artım tempinə və pensiya kapitalı məbləğləri isə 2021-ci ildə ölkə üzrə istehlak qiymətləri indeksinin 6,7 faizlik illik artım səviyyəsinə uyğun indeksləşdirilərək artırılmışdır. Bundan başqa, həmin Sərəncama əsasən sığorta prinsipi ilə pensiya alan pensiyaçılara 2022-ci il üzrə 200 manat məbləğində maddi yardımın bərabər hissələrə bölünməklə rübdə bir dəfə ödənilməsi təmin edilmişdir. Bununla yanaşı, cənab Prezidentin digər Sərəncamı ilə qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına 2022-ci ildə onların aylıq pensiyasının 10 faizi məbləğində aylıq maddi yardım ayrılmışdır. Əmək pensiyalarının indeksləşdirilməsi və maddi yardımın ödənilməsi məqsədilə illik 440 milyon manat vəsait xərclənmiş və bu artım bütün növ pensiyaları əhatə etmişdir.

Görülən tədbirlər nəticəsində əmək pensiyalarının orta aylıq məbləği 2022-ci ilin 1 yanvar tarixinə olan 331,7 manatdan 2023-cü ilin 1 yanvar tarixinə ilkin hesablamalara görə 371,7 manata, o cümlədən müvafiq olaraq həmin tarixə yaşa görə əmək pensiyasının orta aylıq məbləği 360,9 manatdan 398,9 manata, əlilliyə görə əmək pensiyasının orta aylıq məbləği 290,9 manatdan 325,4 manata və ailə başçısını itirməyə görə əmək pensiyasının orta aylıq məbləği isə 280,0 manatdan 327,9 manata yüksəlmişdir. Pensiyaların orta aylıq məbləği əvvəlki illə müqayisədə 12,1 faiz, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği isə 10,6 faiz artmışdır.

***Ünvanlı Dövlət Sosial Yardımı (ÜDSY) və sosial müavinətlər:*** Hesabat dövründə aztəminatlı ailələrin maddi rifahının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmiş, ÜDSY alan ailələrin sayı 2022-ci ildə 65,2 minə (ailəüzvü sayı 289,5 minə) çatmışdır. 2022-ci ildə bir ailəyə düşən sosial yardımın orta aylıq məbləği ümumilikdə sosial yardım alan ailələr üzrə 392 manat təşkil etmişdir ki, bu da 2021-ci illə müqayisədə 40 faiz çoxdur. 2022-ci il ərzində DSMF tərəfindən 403 min nəfərə və ya əhalinin 3,9 faizinə aylıq, 75 min nəfərə və ya əhalinin 0,7 faizinə birdəfəlik xarakterli olmaqla ümumilikdə 478 min nəfərə və ya əhalinin 4,7 faizinə sosial müavinət, 368 min nəfərə və ya əhalinin 3,6 faizinə isə Azərbaycan Respublikası Prezidentinin təqaüdü ödənilmişdir.

***Əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya:*** "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının icrası çərçivəsində 20-dək normativ-hüquqi akt layihəsi hazırlanmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı ilə "Əlilliyin müəyyən olunması meyarları" təsdiq edilmiş və 2022-ci il 1 iyul tarixindən qüvvəyə minmişdir. 2022-ci ildə dövlət tibb müəssisələri tərəfindən rəsmiləşdirilmiş göndərişlər əsasında 19,9 min nəfər üzrə ilkin, 37,5 min nəfər üzrə təkrar əlillik təyinatı aparılmışdır. Postmüharibə dövründə 2023-cü ilin 1 yanvar tarixinə 379 hərbçi 394 yüksək texnologiyalı protezlə təmin edilmişdir. 2022-ci il ərzində xüsusi səbəbdən əlilliyi olan 1,4 min şəxs 16,7 min reabilitasiya vasitəsilə təmin edilmişdir. Hesabat ilində 1,4 min nəfər Vətən müharibəsi iştirakçısı (1001 nəfər stasionar və ambulator reabilitasiya xidmətlərinə, 441 nəfər sosial-psixoloji dəstək layihəsi) ilə psixokorreksiya işləri aparılmışdır.

2022-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin 14 Reabilitasiya Mərkəzində, o cümlədən Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində 50,4 min şəxsə reabilitasiya xidməti göstərilmişdir.

***Sosial xidmət:*** 2022-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 7,1 min şəxsə evdə (səyyar) sosial xidmət göstərilmişdir. Onlardan 6,6 min nəfər ahıl və tənha yaşayan əlilliyi olan şəxsə evdə sosial-məişət xidməti, 95 nəfər 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa

səyyar sosial reabilitasiya xidməti, 400 şəxsə isə sosial-hüquqi xidmət göstərilmişdir. Evdə sosial-məişət xidməti göstərilən şəxslərin 5,8 min nəfəri ahıl, 752 nəfəri isə 70 yaşdan aşağı olan və tənha yaşayan şəxslər olmuşdur. Sosial-məişət xidməti göstərilən şəxslərin 1042 nəfəri əlilliyi olan şəxslər olmuşdur.

## 4. Şəhid ailəsi üzvlərinə və müharibə iştirakçılarına sosial dəstək tədbirləri

Postmüharibə dövründə Vətən müharibəsi şəhidlərinin ailələri və müharibə iştirakçılarına müvafiq sosial dəstək tədbirləri 2022-ci ildə də davam etdirilmişdir. 1 yanvar 2023-cü il tarixə bu tədbirlər 122 min unikal şəxsi əhatə edərək onlar 264 min sosial dəstək tədbiri ilə əhatə olunmuşdur.O cümlədən 3037 şəhidin 8018 ailə üzvünə 16011 sosial ödəniş təyin edilmişdir, bütün mülki şəhidlərin ailə üzvlərinə sosial ödəniş təyinatları yekunlaşdırılmışdır, 16521 şəxs məşğulluq tədbirlərinə (9455 şəxs özünüməşğulluq proqramına, 6827 şəxs işədüzəltməyə, 239 şəxs peşə hazırlıq kurslarına) cəlb edilmişdir. Məşğulluq marafonu çərçivəsində 681 işəgötürən tərəfindən 5137 vakansiya təqdim edilmiş, 2538 şəxs müvafiq işlə təmin olunmuşdur,4500 mənzil şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan və həssas təbəqədən olan digər şəxslərə verilmişdir, 324 avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilmişdir, 2954 ailənin üzvlərinə psixoloji dəstək göstərilmiş və ödənişsiz dərman verilmişdir, reabilitasiya müəssisələrində 2672 nəfərə reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilmişdir, 379 hərbçi (I və II Qarabağ müharibəsi ilə əlqədar əlilliyi olanlar) 394 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilmişdir, müharibə ilə əlaqədar əlilliyi olan 1793 şəxs 30675 ədəd reabilitasiya vasitəsilə təmin edilmişdir.

***Vahid əlaqələndirmə mərkəzləri (VƏM):***

- Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 iyun tarixli Fərmanı ilə yaradılmış VƏM şəhid ailəsi üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə xidmətlərin vahid məkandan təxirəsalınmaz və operativ şəkildə icrasını təmin etmişdir .VƏM-də “bir pəncərə” prinsipi ilə 5 mərkəzi icra hakimiyyəti orqanı (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi) və 48 yerli icra hakimiyyəti orqanı üzrə 26 xidmət göstərilmişdir. DOST mərkəzləri və DSMF-nin regional ərazi filiallarında 11 VƏM fəaliyyət göstərmişdir. VƏM vasitəsilə 2023-cü ilin 1 yanvar tarixinə 71,9 min şəxsə birbaşa xidmət göstərilmişdir.

## 5. Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) konsepsiyası

Xidmətlərə əhalinin əlçatanlığını təmin etmək və geniş imkanlar yaratmaq məqsədilə 2022-ci ildə DOST Agentliyi yeni “Virtual DOST” layihəsinə və onun tərkib hissəsi olan “Smart DOST” xidmət məntəqələrinin təşkil olunmasına başlamışdır. Eyni zamanda, hesabat dövründə DOST Agentliyi özünün regional və işğaldan azad edilmiş ərazilərdə “Qarabağ və Şərqi Zəngəzur” DOST Proqramını həyata keçirməyə başlamışdır. “Qarabağ və Şərqi Zəngəzur” DOST Proqramı çərçivəsində Zəngilan rayonunun Ağalı kəndində 2022-ci il 27 may tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə ölkə üzrə ilk “Smart DOST” xidmət məntəqəsi istifadəyə verilmişdir. Ümumilikdə 2025-ci ilədək ölkənin bütün rayonlarını (Naxçıvan Muxtar Respublikası daxil olmaqla) əhatə edəcək 17 regional DOST mərkəzinin və 55 rayon filialının açılması nəzərdə tutulmuşdur. 2023-cü ildə regionlarda açılması planlaşdırılan 3 yeni DOST mərkəzi (Bərdə, Quba, Sumqayıt), Şuşa şəhərində xüsusi DOST filialı və bir neçə rayonda DOST filialları üzrə təmir-tikinti işlərinin icrası davam etdirilir.

Ümumilikdə 2022-ci ilinin sonunadək DOST mərkəzləri tərəfindən 1,3 milyondan çox şəxsə xidmət göstərilmişdir ki, onlardan 38,3 mini elektron formada göstərilən xidmətlər olmuşdur. DOST mərkəzlərində müraciət edənlər arasında aparılmış sorğunun nəticələrinə əsasən vətəndaşların 2022-ci il üzrə məmnunluq səviyyəsi 98,5 faiz təşkil etmişdir.